# "Bir bülbülün türküsü" Neftçalada







Bu günlərdə Nefcalada "Kredo" qəzetinin baş redaktoru Əlirza Xələflinin "Bir bülbülun türküsü" adlı kitabının təqdimat mərasimi oldu.

Kitab professor İmamverdi Əbilovun nəvəsi, həyatdan vaxtsız köçmüş gənc şərqşünas alim Əbil Əbilovun xatirəsinə həsr olunmuş "Bir bülbülun türküsü" adlı poema daxil edilib.

Kitabda eyni zamanda İmamverdi müəllimin nəvəsinə yazdığı ürəkparçalayan elegiyalar, Xalq şairi Zəlimxan Yaqubun "Azər Turana təsəlli" və "Ağsaqqal açısı" şeirləri, gənc Əbilin qələmindən çıxmış heyrətamiz "Sevda türküsü" əsərindən seçmələr yer alıb.

Yeni nəşrə ön sözü ədəbiyyatşünas alim Qurban Bayramov, son sözü filologiya elmləri doktoru, professor Yədulla Ağazadə yazıb.

Tədbiri Heydər Əliyev Mərkəzinin direktoru Könül Məmmədova açıb. Professor Yədulla Ağazadə, tənqidçi Qurban Bayramov, Əlirza Xələfli, Azərbaycan Yazıçılar Birliyi Lənkəran bölməsinin sədri Qafar Cəfərli, "Ulduz" jurnalının poeziya şöbəsinin müdiri Dayandur Sevgin, Avdı Qoşqar, Ağamir Cavad, Elşad Barat, "Gündoğar" qəzetinin baş redaktoru Bədirə Niftalıyeva, veteran jurnalist Əlövsət Polad və Zabil Pərviz çıxış etdilər. Yığıncaqda şəhid valideynləri və rayon içtimaiyyətinin nümayəndələri də iştirak edirdilər.

Sonda gənc şərqşünas alim Əbil Əbilovun atası Etibar müəllim gələn qonaqlara və tədbir ıştirakçılarına öz minnətdarlığını bildirib.